www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet



Fikrət QOCA

## QAÇQIN GƏLİNƏ

Yayda yaylağa gedərlər,
Səni sürdülər arana.
Yayın cırcırama çağı
Mən də duz basdım yarana.
Xəyalın dağlar qoynunda,
Yarpızlı dovğa bulayır.
Dağda sənsiz qalan yurdun
Axşam qurd olub ulayır.
Evi viran qalan bacım,
Gözü-könlü talan bacım.
Ala gözə bulud qonur,
Göz yaşın qəlbinə axır.
Sinəni yandırır, yaxır,
Yuxarıdan Tanrı baxır,
"Yaxan düymələ, düymələ".

+++

Yollar uzun, dağlar uzaq,
Bu dərd varaqlara sığmaz,
Bu dərdi yollara yazaq.
Eyvanda qalan kitabı
İndi külək varaqlayır.
Siz dərəyə qaçan yerdə,
Hələ də bulaq ağlayır.
Məhlədə qalan yürüyü
Hansı xəyal yırğalayır?
Ağzı açıq qalan evlər
Axşam qurd olub ulayır.
Xəyal zəncir qırar qaçar,
O səsdən ürək çapalar,
Ürəyin sinəndən uçar,
"Yaxan düymələ, düymələ".

+++

Bir gün köçün dönər geri,
Gözündə inam işığı,
Ürəyində yanıq yeri...
Yurd üçün susuz dodağın,
"Oxqay" - deyib öpər yeri.
Darvazasız məhlələrin,
Divarı, daşı kövrələr.
Ürəyimdə daşa dönmüş,
Gözümün yaşı kövrələr,
Susub qəlbimdə inlərəm:
"Bəndləri uçuq ellərim,
Yaxası açıq evlərim,
Yaxan düymələ, düymələ".

**02.06.1999**

## BABALARIM

Babalarım kasıb olub, mərd olub!
Qoçaq olub, mərd olub,
Bəy olub, mərd olub
Qaçaq olub, mərd olub
Bəs bu namərdlər hardandı?
Bax bu mənə dərd olub.

*(Şeirlər 2000-ci ildə çap olunmuş "Adi həqiqətlər" kitabından götürülüb)*

## HARA BAXIRSAN İNSANDI

Yerdə insan, göydə insan,
Yolda insan, öydə insan,
Hara baxırsan insan,
İnsan, İnsan!!!
Aman Allah,
Bu qədər insan arasında,
Bir adam tapmadım,
Söhbət yoldaşı olasan!

**19.03.2021**

## DAMLALARDAN...

Bu dünyaya gələnin
Qəlbində bir müdrik var,
Qarnında bir cahil var.
Ağzında bircə dil var.
Müdrik sözünü desə,
Özü də müdrik olar.
Cahil deyəni desə,
Özü də bir yük olar.
Müdrikləri dinləsə,
Özündən böyük olar!

**20.03.2021**

## QALMAYACAQ

Bilmirəm harda? Göyün hansı qatında?
Bilirəm hər kəsin bir sirri var,
Allahın əlinin altında...
Düşünür bəlkə görüb götürdükləri
Qəlbinin gözünü açdı.
Haqsızlıqdan dönüb qaçdı.
Yaratdığın canlılardan
İnsan ən gec yetişənidir;
Ən gec başa düşənidir.
Olar ki, zaman gələr, dözülməz...
Haqq incələr, amma üzülməz...
İsgəndər kimi Xaqanlar gələr,
Ya da torpaqdan
Spartak kimi qullar doğular.
Ya da İlham kimi ata vəsiyyətinə
Sadiq oğullar doğular.
Mənim cənnətimdə od olacaq!
Amma cəhənnəm olmayacaq!
Çünki qisas qiyamətə qalmayacaq!

**23.03.2021**